**UOT 7**
**https://doi.org/10.59849/2218-4783.2024.2.299**

**ZƏMİNƏ NƏCƏFOVA**

# AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİNDƏ NAXÇIVAN MÖVZUSUNA MÜRACİƏT

*Qədim Naxçıvan diyarı Azərbaycanın ayrılmaz hissəsi olmaqla yanaşı, özünəməxsus mədəni irsə malik bir coğrafi məkandır. Naxçıvan bölgəsi gözəl təbiəti, dağları, dərələri, çayları, şəlalələri və qayğıkeş insanları ilə yaradıcı insanların nəzər-diqqətini daim cəlb etmişdir. Belə ki, buraya səyahət edən incəsənət adamları bu diyardan ruhlanaraq bir sıra gözəl sənət əsərləri yaratmışlar.*

*İncəsənətin müxtəlif sahələrində meydana gəlmiş sənət əsərlərində Naxçıvan mövzusu geniş şəkildə istifadə olunmuşdur. Bununla yanaşı, musiqi sahəsində yaranmış əsərlərdə də bu mövzuya sıx-sıx müraciət olunmasının şahidi oluruq.*

*"Azərbaycan bəstəkarlarının əsərlərində Naxçıvan mövzusuna müraciət" adlı məqalədə Azərbaycan bəstəkarları, eləcə də Naxçıvanda böyüyüb boya-başa çatan bəstəkarların yaradıcılığında Naxçıvana həsr olunmuş müxtəlif janrlı əsərlər tədqiq olunur. Bəstəkar Məmməd Cavadovun "Naxçıvan" mahnısı, Nəriman Məmmədovun xalq çalğı alətləri orkestri üçün "Naxçıvan" süitası, R.Mirişlinin "Naxçıvan təranəsi", Süleyman Ələsgərovun xalq çalğı alətləri orkestri üçün "Naxçıvan lövhələri" süitası təhlil edilmiş, Tofiq Bakıxanovun yaradıcılığında Naxçıvanla bağlı əsərlərin yaranma səbəbləri diqqətə çatdırılmışdı.*

*Məqalədə bu əsərlərin Azərbaycanın qədim diyarı olan Naxçıvanın əsrarəngiz təbiət mənzərələrindən, onun təbii şəraitindən, insanların həyat eşqi, həyat həvəsi, vətənin füsunkar gözəlliyindən ruhlanaraq meydana gəlməsi vurğulanır.*

**Açar sözlər:** *Azərbaycan, Naxçıvan, bəstəkar, musiqi, N.Məmmədov, R.Mirişli, S.Ələsgərov, T.Bakıxanov, incəsənət, mədəniyyət.*

**Giriş.** Bildiyimiz kimi, 1937-ci ildə dahi bəstəkar Ü.Hacıbəylinin təşəbbüsü ilə Naxçıvanda ilk musiqi məktəbi fəaliyyətə başlamışdır. O dövrdə Naxçıvanda musiqi təhsilinin və mədəniyyətinin inkişafına dəstək vermək üçün tanınmış bəstəkarlar və incəsənət xadimləri buraya sıx-sıx səfərlər edirdilər. Hətta bir sıra bəstəkarlar və musiqiçilər bir neçə il burada yaşamış və çalışmışlar. Bunlardan Məmməd Cavadovun və Xəlil Cəfərovun adlarını qeyd edə bilərik.

Məmməd Cavadov o dövrdə Naxçıvan Dövlət Musiqili Dram Teatrında direktor vəzifəsində çalışmaqla yanaşı, Naxçıvan musiqi məktəbində də dərs verirdi. Gərgin iş rejiminə baxmayaraq Məmməd Cavadov müxtəlif sahələrdə çalışırdı. O, teatrda Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarına, "Arşın mal alan" musiqili komediyasına uğurla dirijorluq etməklə yanaşı, musiqi məktəbində nəzəriyyə və xor siniflərində, həmçinin klarnet ixtisası üzrə dərs keçərək gənc musiqiçilərin sənətə dərindən yiyələnmələri üçün əlindən gələni əsirgəmirdi.

Naxçıvanda musiqi təhsili və mədəniyyətinin inkişafına kömək etmək məqsədilə buraya gələn bəstəkarların Naxçıvanın təbiətindən, insanlarından aldıqları təəssüratlar maraqlı musiqi əsərlərinin yaranmasına səbəb olmuşdur. Naxçıvan haqqında yazılmış mahnılardan Naxçıvanın "atributu" sayılan "Naxçıvan" mahnısının müəllifi də məhz Məmməd Cavadov olmuşdur. Bu mahnının tarixçəsi haqqında Rafail Kərimovun "Naxçıvan musiqi mədəniyyəti tarixindən. Musiqi təhsili" adlı monoqrafiyada geniş məlumat verilmişdir.

Musiqi məktəblərinin yaranması, istedadlı gənclərin musiqi təhsillərini paytaxtda davam etdirib doğma yurda qayıtması, gənc bəstəkarlar nəslinin meydana gəlməsi, Naxçıvanda Bəstəkarlar Təşkilatının yaranması üçün bir zəmin yaratmışdı. 1978-ci ildə məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı yaradıldı. Görkəmli bəstəkar Ramiz Mirişli təşkilatın sədri, Məmməd Ələkbərov isə məsul katib təyin olunmuşdur.

Naxçıvanda doğulub, boya-başa çatmış professional bəstəkarlardan Nəriman Məmmədov, Ramiz Mirişli, Kamal Əhmədov, Yaşar Xəlilov, Nazim Quliyev, Naxçıvan musiqi incəsənətinin formalaşmasında, tərəqqisində və onun təşəkkülündə böyük rol oynayan musiqiçilər Məmməd Ələkbərov, Rəşid Məmmədov, Məmməd Məmmədov, Şəmsəddin Qasımov , Əkrəm Məmmədov və başqaları Naxçıvan Bəstəkarlar Təşkilatının üzvü olduqları dövrdə bir sıra maraqlı əsərləri ilə musiqisevərləri sevindirmişlər. Bununla yanaşı, Naxçıvanda boya-başa çatmış bəstəkarlar doğma yurda olan məhəbbət və sevgilərini, heyranlıqlarını yaratdıqları müxtəlif janrlı əsərlərdə əks etdirmişdilər. Bəstəkarların yaradıcılığına nəzər salsaq, Naxçıvana həsr olunmuş əsərlərin müxtəlif janra aid musiqi nümunələrində meydana gəlməsinin şahidi olarıq. Misal üçün bəstəkar Nəriman Məmmədovun 1964-cü ildə yazmış olduğu, xor və xalq çalğı alətləri orkestr üçün "Naxçıvan süita"sını qeyd edə bilərik. Bu süitanı bəstəkar Naxçıvan Muxtar Respublikasının 40 illik yubileyinə həsr etmişdir. Əsər ilk dəfə bu tarixə həsr olunmuş təntənəli konsertdə ifa olunmuşdur.

5 hissədən ibarət olan "Naxçıvan" süitası Azərbaycan xalqına məxsus müxtəlif rəqslər əsasında meydana gələrək qədim Azərbaycan diyarı Naxçıvanın gözəlliyindən, onun təbii şəraitindən bəhs edir.

Süitanın bütün hissələri nömrələnmiş şəkildə verilmişdir. Əsərin müxtəlif hissələrində poetik mətnə müraciət olunur. Bu hissələrdə Bəstəkar İ.Səfərlinin şeirlərindən istifadə etmişdir. I hissənin poetik mətnində əsasən təbiət təsvirlərinə geniş yer verilir. İ.Səfərlinin 11 hecalı, iki bəndli və nəqəratdan ibarət olan bu şeiri bəstəkar tərəfindən kuplet variant şəkildə istifadə edilir. Buradakı misralar kupletlərdə dörd misra, nəqəratda isə üç misra təşkil edir. Misralar adətən iki-iki istifadə olunaraq sual və cavab cümlələrin periodik birləşməsi formasında əks olunur.

Əsərdə Bəstəkar Azərbaycanın gözəl diyarı olan Naxçıvan bölgəsinin tərənnümünü, onun gözəl təbiətini, özünəməxsus həyat tərzini musiqi dili ilə əks etdirməyə çalışmışdır. Bəstəkar süitada vokaliz səslənmələrdən istifadə etməklə bölgəyə məxsus füsunkar gözəlliyi daha da mənalı ifadə tərzi ilə verməyə nail olmuşdur.

Naxçıvan diyarının yetişdirdiyi, Azərbaycan bəstəkarlıq məktəbində özünə layiqli yer tutan Ramiz Mirişlinin yaradıcılığında vətən mövzusuna müxtəlif janrlı əsərlərdə rast gəlinir. Məsələn, "Odlar diyarı", "Doğma diyar", "Sən ucadan uca diyar" kantatalarını, "Azərbaycan", "Odlar yurdu" süitalarını, "Azərbaycan dünyam mənim", "Vətənimsən", "Doğma diyarım" və s. əsərləri göstərə bilərik. Bununla yanaşı, bəstəkarın yaradıcılığında doğulub boya başa çatdığı Naxçıvana həsr olunmuş musiqi nümunələrinə də rast gəlmək mümkündür. Belə ki, bu əsərlərdən xalq çalğı alətləri orkestri üçün "Naxçıvan musiqi lövhələri" süitasını, "Naxçıvan təranələri", "Arazım", "Qızlar bulağı" və s. mahnıları qeyd edə bilərik.

"Naxçıvan təranəsi" mahnısının sözləri tanınmış şair İslam Səfərlinindir. Mahnıda Azərbaycanın ayrılmaz bir parçası olan Araz üstü günəşli bir diyarın, dağı qarlı, bağı çiçəkli Naxçıvanın gözəlliyindən, mərd oğul və qızından danışılır, onun nurlu sabahı, ətirli gülabı, ululuğu alqışlanır. Bu mahnının sözlərində Naxçıvanın simasında bütün Azərbaycana sonsuz bir şair

məhəbbəti və tükənməz sevgi duyğusu hiss olunur.

Tanınmış musiqişünas G.İsmayılova "Bəstəkar Ramiz Mirişli" adlı kitabında bəstəkarın digər əsərləri ilə yanaşı, "Naxçıvan təranəsi" mahnısının musiqi təhlilini verərkən söyləyir: "Naxçıvan təranəsi" mahnısı mülayim tempdə yazılıb və instrumental müqəddimə ilə başlayır. Onun melodiyası nəqəratın ikinci hissəsinin melodiyasından alınmışdır. Bu priyomun özü də xalq mahnılarına əsaslanır. Onu da deyək ki, bu üsul öz davamını vokal partiyanın müşayiəti zamanı da tapır.

Mahnıda əsas kuplet bütövlükdə on iki xanəni əhatə edir. Əvvəl cümlə şüştərin aralıq ladı olan tərkibin intonasiyalarına əsaslanır. Son dörd xanə vasitəsilə alt kvartaya, yəni tamamlayıcı tona qayıdılır və burada şüştər ladının mayeyi şüştər intonasiyalarından istifadə olunur. R.Mirişli xalq mahnılarında işlənən bu cəhəti özünün bu mahnısına tətbiq etmişdir.

Nəqərat tamamlayıcı pillənin bir oktava yuxarı diapazonundan başlanır. Əvvəlki dörd xanədə "mi" notu ətrafında gəzişilir və ondan bir ton aşağı pillədə dayanılır. İkinci dörd xanə isə həmin musiqi düzümünün sekvensiyasından ibarətdir.

Təhlil etdiyimiz mahnının kodası da var. Bu üç xanəli kodada vokal partiya zil səslərə əsaslanır və mahnı "mi" səsinin uzadılması ilə bitir. Adətən, bəstəkarlar bu priyomdan Vətəni tərənnüm edən mahnılarda istifadə edirlər" (G.İsmayılova 2000, 43-44).

Naxçıvan mövzusuna burada doğulub boya-başa çatmış bəstəkarlarla yanaşı, digər Azərbaycan bəstəkarlarının əsərlərində də müraciət olunmuşdur. Buna misal olaraq Azərbaycan Respublikasının xalq artisti, bəstəkar Süleyman Ələsgərovun Naxçıvana həsr olunmuş bir neçə əsərini qeyd edə bilərik. Bəstəkar 1984-cü ildə Naxçıvan Muxtar Respublikasının yaranmasının 60 illiyi münasibəti ilə, mahnı və rəqs ansamblı üçün "Bayram süita"sını bəstələmişdir. Süitada günü-gündən çiçəklənən Naxçıvanın qurub yaradan əmək adamları, onların şan şöhrətli əməyi, xoşbəxt həyatı tərənnüm olunur. Daha sonra bəstəkar 1985-ci ildə xalq çalğı alətləri orkestri üçün "Naxçıvan lövhələri" süitasını yazır. Süleyman Ələsgərov 1979-cu ildən 1986-cı ilə qədər, hər tədris ilinin sonunda Naxçıvan Orta İxtisas Musiqi məktəbində keçirilən Dövlət İmtahanlarında Komissiya sədri kimi iştirak etmişdir. Heç şübhəsiz ki, bəstəkar Naxçıvanda olan zaman buranın gözəl təbiət mənzərələrindən aldığı təəssürat, istiqanlı insanlarının bəstəkara göstərdiyi qayğıkeşlik, isti münasibət məhz bu əsərlərin meydana gəlməsinə təkan vermişdir.

Qeyd etdiyimiz kimi, "Naxçıvan lövhələri" süitası 1985-ci ildə yazılmışdır. Bu süita 4 hissədən ibarətdir. Bəstəkar bu hissələr arasında bağlılıq yaradan Attaccalardan istifadə etmişdir. Əsərdə əsasən I hissədən II hissəyə keçiddə və III hissədən IV hissəyə keçiddə Attacca baş verir.

Bəstəkar orkestr tərkibində dəyişiklik edərək buraya piccolo fleyta, fleyta, qaboy, klarnet, litavra, kontrabas alətlərini əlavə etmişdir. Maraqlı cəhətlərdən biri də iki qanunun istifadə olunmasıdır.

I hissə Moderato con moto tempində verilərək, 2/4 ölçüdə ifadə olunur. Hissənin sonuna qədər 2/4 ölçü dəyişməz olaraq qalır. Aşıq musiqisinə xas olan elementlər bu hissənin əsas qayəsini təşkil edir. Bölümün rəqsvarı xarakterdə olması ilk baxışdan nəzər diqqəti cəlb edir. Melizmlərdən geniş istifadə etmə, zurnanın buraya əlavə edilməsi oynaq xarakterli, müxtəlif ritmik şəkilli intonasiyaları daha da rövnəqləndirir.

Hissənin başlanğıcı dəf, nağara və litavra alətlərinin ifası ilə verilir. Bu hissə şur və şüştər lad-intonasiyalarında yazılmışdır. Hissə rondovarı formada olub, a+a1+b+a2+c+b1+b2

quruluşdadır. Ən incə məsələlərdən biri odur ki, bəstəkar 6a rəqəmindən başlayaraq təkrar etdiyi variantda şüştər lad-intonasiyalarından istifadə edir. Həmin intonasiyaya əsaslanan melodiya orkestrin aparıcı alətləri tərəfindən ifa olunur. Son olaraq bəstəkar şüştər, çahargah lad-intonasiyalarına əsaslanan aksentli notlarla II hissəyə keçir.

II hissə Andante cantabile tempində səslənərək, 7-ci rəqəmdən başlayır. Şur lad-intonasiyalarına əsaslanan bu hissə kuplet-variasiya formasında olub, a+b+a1+b1 quruluşunda əks olunur. II hissə quruluş etibarı ilə mahnı prinsipinə yaxındır. Mülayim, oxunaqlı bu hissədə bəstəkar nikbin xarakterli səslənmə xüsusiyyətlərinə daha geniş yer verir. Həmin xüsusiyyətlər tar və qanunun unison səslənmələrində bir qəhrəmanın hiss və düşüncələrini əks etdirir. Sonradan bu melodiyanın təkrarı xalqın arzu və istəyinin ifadəsi kimi təsvir olunur. Hissə 6/8 ölçüdə olub sona qədər dəyişməz qalır.

III hissə Alleqro tempində, yenə şur lad-intonasiyalarına əsaslanaraq, 6/8 ölçüdə verilmişdir. Bəstəkar tez tempdən istifadə edərək rəqs xarakterini əsas qayə kimi qarşıya qoyur. Buradakı rəqs şən əhval ruhiyyəni özündə əks etdirərək, solo səslənmələrdə xüsusi intonasiya çaları yaradır. Bu hissə kuplet-variasiya formasında olub, a+b+a1+b1 quruluşundadır.

IV hissə I hissənin musiqi materialı əsasında qurulmuşdur. Bu hissədə səslənən musiqi birinci hissənin materialı üzərində leytmövzu kimi verilir. Yüksək tessituralı səslənmələr və zurnanın buraya əlavə olunması birinci hissənin mövzu materialından götürülmüş səslənmələrin daha dolğun xarakterdə ifadəsini yaradır.

Burada bəstəkar a+b+c+b1+b2 quruluşunda, rondo formasına əsaslanır.



Müəllif I hissədən fərqli olaraq burada bütün alətlərin ifasına üstünlük vermişdir. Ud, saz, kamança alətləri burada 8-lik və 16-lıq notlara əsaslanan, ostinato şəkilli ifaya üstünlük verirlər. II tar, litavra və fortepiano eyni ritmik şəkil ölçüsünü sona qədər saxlayırlar. Lakin bu zaman bütün alətlər melodiyanı unison şəkildə ifa edirlər. 19-cu rəqəmdə hissənin f nüansında kulminasiyası baş verir. Sonda isə bütün alətlər sp, crescendo və ff nüansında, əvvəl 16-lıq, daha sonra aksentli 8-lik notların güclü zərbələrdə ifası ilə hissəni və əsəri sona çatdırır.




Süitada əsasən aşıq musiqi elementlərindən və mülayim oxunaqlı musiqidən istifadə edən bəstəkar oynaq rəqs xarakterinə də geniş yer verir. Bu xüsusiyyətlər orkestr alətlərinin melizmli səslənmələri ilə daha qabarıq şəkildə ifadə olunaraq Naxçıvanın füsunkar gözəlliyi, onun təbiəti haqqında musiqi dili vasitəsilə təsvir yaratmışdır.

Bəstəkarın "Naxçıvan lövhələri" süitası S.Rüstəmov adına xalq çalğı alətləri orkestrinin ifasında (N.Əzimovun dirijorluğu ilə) səslənmiş və lentə alınmışdır. Bu gün də bu əsər vaxt-aşırı radio və mavi ekrandakı konsertlərdə səsləndirilir.

Yaradıcılığında Naxçıvan diyarı ilə bağlı musiqi əsərləri olan bəstəkarlardan biri də Tofiq Bakıxanovdur. Naxçıvan Bəstəkarlar Təşkilatının təşəbbüsü ilə Tofiq Bakıxanovun 75, 80, 85 illik yubileyləri Naxçıvanda yüksək səviyyədə qeyd olunmuşdur və bu tədbirlər sayəsində Naxçıvan ictimaiyyəti bəstəkarın yaradıcılığı ilə daha yaxından tanış olmaq imkanı əldə etmişdir. Naxçıvana hər gəlişində buradan olduqca razı qalan, xoş təəssüratlarla ayrılan

bəstəkar bu duyğuları Naxçıvana həsr olunmuş əsərlərdə əks etdirmişdi. Buna misal olaraq xalq çalğı alətləri orkestri və simfonik orkestr üçün yazdığı "Naxçıvan" simfoniyettasını göstərmək olar. Bu əsər haqqında Əməkdar jurnalist İttifaq Mirzəbəyli öz fikirlərini belə ifadə edir: "Bu simfoniyettada Naxçıvanın Əcəmi Naxçıvanidən Hüseyn Cavidə qədər olan mədəniyyətinin, Əshabi-Kəhvdən Batabata qədər olan Allah vergisinin, Babəkdən Heydər Əliyevə qədər olan şəxsiyyətlərinin obrazını görməmək mümkün deyil."

Zəngin yaradıcılıq irsinə malik bəstəkarın kamera-vokal əsərlərindən olan "Naxçıvan təranələri", Naxçıvan şairlərinin sözlərinə yazılmış "Xoş ovqatlı mahnılar" məcmuəsində yer alan Naxçıvana həsr olunmuş mahnılar bəstəkarın bu diyara olan sevgisinin ifadəsidir. Mövzu və melodiya cəhətdən rəngarəng olan bu mahnılardan "Naxçıvan", "Arpaçay", "Batabat bağları", "Nurlu Naxçıvan" və b. qeyd edə bilərik. Ümummilli lider Heydər Əliyevdən bəhs edən "Həmişə bizimləsən" simfonik poeması da bəstəkarın Naxçıvan səfərlərindən aldığı təəssüratların nəticəsində meydana gələn əsərlərdəndir.

Fikrimizi yekunlaşdırıb belə bir qənaətə gələ bilərik ki, Azərbaycanın qədim diyarı olan Naxçıvan daima bəstəkarlarımızın müxtəlif janrlı əsərlərində müraciət etdiyi bir mövzu olaraq nəzər diqqəti cəlb etmişdir. Naxçıvan mövzusuna həsr olunan əsərlər müxtəlif musiqi janrlarında – simfoniyetta, simfonik poema, süita, konsert, kantata, mahnı və s. meydana gəlmişdir.

**Nəticə.** Ümumiyyətlə, Naxçıvan mövzusuna bir çox Azərbaycan bəstəkarlarının yaradıcılığında müraciət olunub. Heç şübhəsiz ki, bir məqalədə bu əsərlərin hamısına müraciət etmək qeyri mümkündür. Bəstəkarlarımız yazdıqları əsərlərdə Naxçıvan diyarının gözəl təbiət mənzərələrini, insanların qaynar həyatını, insanların həyat eşqini, həyat həvəsini, vətənin füsunkar gözəlliyini xalq musiqisinə xas intonasiyalardan – aşıq musiqi elementləri, rəqs musiqisi elementləri, xalq mahnılarına xas üsullardan, lad intonasiya xüsusiyyətlərindən istifadə etməklə, müxtəlif ifadə tərzi ilə, musiqi dili ilə əks etdirməyə nail olmuşlar. Bu mövzuya müraciət edən bəstəkarlar əsasən Naxçıvana səyahət edəndən sonra, buradan aldıqları müsbət təəssüratların nəticəsində gözəl əsərlər yaratmışlar. Eyni zamanda bu diyarda doğulub boya-başa çatmış bəstəkarların yaradıcılığında doğma yurda olan sevgi və rəğbətin təcəssümü kimi meydana gələn əsərlərdə Naxçıvan mövzusuna müraciət olunmuşdur. Bu əsərlər sevgi və minnətdarlıq hisslərinin təsirindən yarandığı üçün melodiyalarda da bu səmimiyyət aydın hiss olunur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında Naxçıvan mövzusuna həsr olunmuş əsərlər musiqi incəsənətimizdə öz layiqli yerini tutmuş, peşəkarlar və musiqisevərlər tərəfindən bu gün də sevilərək ifa olunur.

## ƏDƏBİYYAT

1. Фархадова Р. Нариман Мамедов. Бакы: Ишыг, 1982, 47 с.
2. İsmayılova G. Bəstəkar Ramiz Mirişli. Bakı, 2000, 72 s.
3. Kərimov R. Naxçıvan musiqi mədəniyyəti tarixindən. Musiqi təhsili. Bakı: Azərnəşr, 2012, 160 s.
4. Qafarova M. Bəstəkar Süleyman Ələsgərovun xalq çalğı alətləri orkestri üçün əsərləri və onların interpretasiya xüsusiyyətləri. Sən. nam. ... diss. avtoreferatı, 2002.
5. Qulamova J. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu. Bakı: Mars-Print, 2010, 135 s.

6. Nəcəfova Z. Azərbaycan xalq çalğı alətləri orkestri və süita janrının bəstəkar yaradıcılığında yeri: Dərs vəsaiti. Naxçıvan: Qızıl-dağ, 2012, 243 s.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: zaminajafova@gmail.com***

**Zamina Najafova**

## APPEAL TO THE NAKHCHIVAN THEME IN THE WORKS OF AZERBAIJANI COMPOSERS

The ancient land of Nakhchivan, being an integral part of Azerbaijan, is at the same time a geographical area with a unique cultural heritage. The Nakhchivan region has always attracted the attention of creative people with its beautiful nature, mountains, valleys, rivers, waterfalls and caring people. Thus, the artists who came here created a number of beautiful works of art inspired by this land. The theme of Nakhchivan was widely used in works of art created in various genres. In addition, we see frequent references to this theme in musical works. The article “Appeal to the theme of Nakhchivan in the works of Azerbaijani composers” examines works of various genres dedicated to Nakhchivan in the works of Azerbaijani composers, as well as composers who grew up in Nakhchivan.

The song of the composer Mammad Javadov “Nakhchivan”, the suite for the orchestra of folk instruments “Nakhchivan” by Nariman Mammadov, “Nakhchivan tunes” by R. Mirishli, the suite “Nakhchivan pictures” by Suleyman Alesker for the orchestra of folk instruments are analyzed, the reasons for the creation of works related to Nakhchivan in the works of Tofig Bakikhanov are considered. Finally, it is emphasized that these works are inspired by the mysterious natural landscapes of the ancient Azerbaijani land of Nakhchivan, its natural conditions, love of life, enthusiasm, and the enchanting beauty of the homeland.

**Keywords:** *Azerbaijan, Nakhchivan, composer, music, N.Mammadov, R.Mirishli, S.Alasgarov, T.Bakikhanov, art, culture.*

**Замина Наджафова**

## ОБРАЩЕНИЕ К ТЕМЕ НАХЧЫВАНА В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

Древний край Нахчыван, являясь неотъемлемой частью Азербайджана, одновременно представляет собой географическую местность с уникальным культурным наследием.

Нахчыванский регион всегда привлекал внимание творческих людей своей красивой природой, горами, долинами, реками, водопадами и неравнодушными людьми. Так, приехавшие сюда художники создали ряд прекрасных произведений искусства, вдохновленных этой землей.

Тема Нахчывана широко использовалась в произведениях искусства, созданных в различных жанрах. Кроме того, мы наблюдаем частые обращения к этой теме в музыкальных произведениях.

В статье «Обращение к теме Нахчывана в творчестве азербайджанских композиторов» изучаются произведения различных жанров, посвященные Нахчывану в творчестве азербайджанских композиторов, а также композиторов, выросших в Нахчыване. Проанализированы песня композитора Мамеда Джавадова «Нахчыван», сюита для оркестра народных инструментов «Нахчыван» Наримана Мамедова, «Нахчыванские напевы» Р.Миришли, сюита «Нахчыванские картины» Сулеймана Алескера для оркестра народных инструментов, рассмотрены причины создания произведений, связанных с Нахчываном, в творчества Тофика Бакиханова

В конце подчеркивается, что эти работы вдохновлены загадочными природными ландшафтами древней азербайджанской земли Нахчыван, ее природными условиями, жизнелюбием, энтузиазмом, завораживающей красотой родины.

**Ключевые слова:** *Азербайджан, Нахчыван, композитор, музыка, Н.Мамедов, Р.Миришли, С.Алескеров, Т.Бакиханов, искусство, культура.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.09.2024**
**Son variant 10.10.2024**